## SÖNMƏYƏN İŞIQ

## DÖYÜŞÇÜ-ŞAİR ELXAN XƏZƏRİN NÖVBƏTİ KİTABI İŞIQ ÜZÜ GÖRÜB

***Vətənpərvərlik sahəsində yorulmadan çalışan Daxili Qoşunların veteranı, şair, pedaqoq, psixoloq, “Qızıl qələm” mükafatı laureatı Elxan Xəzərin növbəti “Sönməyən işıq” adlı kitabı nəşr olunub. Hələ gənc yaşlarından yaradıcılıq fəaliyyətinə başlayan, çoxsaylı kitabların müəllifi olan şairin illər keçsə də daxilindəki yazıb-yaratmaq həvəsi ilk günki kimi qalıb. O, cəmiyyəti düşündürən mövzularda yazmağa üstünlük verir. Döyüşçü-şair kimi oxucuların rəğbətini qazanan E.Xəzər öz əsərləri ilə sıralarımızda xidmət edən hərbi qulluqçularımızın döyüş ruhunun, gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi üçün əlindən gələni əsirgəmir.***

Əvvəlki nəşrlərində olduğu kimi “Sönməyən işıq” kitabında da bir-birindən maraqlı şeir nümunələri ilə öz oxucularını bir daha sevindirib.




Məzmununa və mövzusuna görə kitabda öz əksini tapan şeirlərini dörd hissədə, “Qalib əsgər sorağında”, “Dünyanın sirləri”, “Kökünə bağlı nəsil” və “Məktəblilərə poetik dəstək” başlıqları altında cəmləşdirən şair cəmiyyəti narahat edən vacib mövzuları əhatə etməyi bacarıb.

Düşünürük ki, daxilindəki potensial enerjisinin tükənmədiyini, əksinə daha da güclənldiyini ehtiramla oxucusuna çatdıran E.Xəzər bu kitabın adını təsadüfi olaraq seçməyib. “Sönməyən işıq” adı altında o, mənəvi aləmindəki nurun, ziyanın hər zaman olduğu kimi, bu gün də şövqlə parlayıb əsrarəngiz misralara çevrildiyini sevənlərinə çatdırır.

“Əsgər” qəzeti olaraq biz də öz növbəmizdə öncə veteranımıza və kitabın araya-ərsəyə gəlməsində əziyyəti keçən yaradıcı heyətə minnətdarlığımızı bildirir, hər birini səmimi qəlbdən təbrik edirik.

**leytenant N.Ağayeva**

## “KİV VƏ GƏNCLƏRİN HƏRBİ-VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ MÜASİR DÖVRDƏ”

***Bu mövzuda keçirilən konfransda Daxili Qoşunların Mətbuat xidmətinin zabiti də iştirak edib***

Noyabr ayının 16-da “Ambassador” otelində “KİV və gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi Müasir Dövrdə” adlı konfrans keçirilib. Konfrans Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyilə “Universitet Təhsilli Qadınlar Cəmiyyətinin” həyata keçirdiyi “Hərbi-vətənpərvərlik tərbiyəsində Multimediyanın rolunun artırılması” layihəsi çərçivəsində hazırlanmış-dır. Konfransın məqsədi dövlət gənclər siyasətinin əsas istiqamətlərindən olan hərbi-vətənpərvərlik tərbiyəsində KİV-in rolu və vəzifələri, bu istiqamətdə fəaliyyət göstərən dövlət və vətəndaş cəmiyyəti qurumlarının əməkdaşlığının gücləndirilməsi məsələlərini birgə müzakirə etməkdən ibarət idi.

Konfransda Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin nümayəndələri, ölkədə fəaliyyət göstərən media mənsubları, digər qeyri-hökumət təşkilatlarının rəhbərləri və tələbələr iştirak ediblər.







Konfransı giriş sözü ilə açan cəmiyyətin sədri Tamam Cəfərova layihənin məqsəd və vəzifələri, dövlət gənclər siyasətinin formalaşması prosesi, hərbi-vətənpərvərlik tərbiyəsi, eləcə də gənclərin milli-mənəvi tərbiyəsi sahəsində dövlət və vətəndaş cəmiyyəti qurumlarının fəaliyyəti haqqında ətraflı məlumat verib. Qeyd edib ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasəti bu gün prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir.

Uğurlu ordu quruculuğundan danışan məruzəçi diqqətə çatdırıb ki, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyevin noyabrın 12-də aprel döyüşləri zamanı düşməndən azad olunmuş strateji əhəmiyyət kəsb edən Lələtəpə yüksəkliyində hərbi qulluqçularımızla görüşü zamanı səsləndirdiyi fikirlər yeniyetmə və gənclərimizin hərbi-vətənpərvərlik hisslərinin, onların döyüş ruhunun yüksəlməsinə xidmət edir. Xüsusi olaraq vurğulandı ki, torpaqları işğal altında olan bir ölkədə yetişməkdə olan gənc nəslin vətənpərvər ruhda tərbiyələnməsində kütləvi informasiya vasitələrinin də üzərinə çox böyük məsuliyyət düşür.

Konfransda çıxış edən digər iştirakçılar Azərbaycanda vətəndaş cəmiyyətinin və bu istiqamətdə həyata keçirilən dövlət gənclər siyasətinin müsbət nəticələr verdiyini vurğulayıblar. Mövzu ətrafında çıxışlar zamanı uğurlu ordu quruculuğu, gənclərimizin hərbi xidmətə gündən-günə artan marağı, ümumiyyətlə, ölkədə mövcud olan yüksək hərbi-vətənpərvərlik mühitinin formalaşmasında KİV-in müstəsna rolundan bəhs edilib. Qeyd olunub ki, vətənpərvərlik ilk növbədə hər kəsin öz işinə məsuliyyətlə yanaşmasından, onu keyfiyyətlə icra etməsindən başlayır. Eyni zamanda, QHT-lər tərəfindən həyata keçirilən hərbi-vətənpərvərlik layihələrinin dövlət orqanları tərəfindən də dəstəklənməsinin təqdirəlayiq hal olduğu bildirilib.

Konfrans iştirakçılar tərəfindən Azərbaycan Respublikasının Dövlət Himninin ifa olunması ilə başa çatıb.

**leytenant N.Ağayeva**

## YIĞMA KOMANDAMIZ İKİNCİ YERƏ LAYİQ GÖRÜLÜB

***Daxili İşlər Nazirinin müvafiq əmrinə əsasən, noyabrın 17-dən 19-dək DİN-in İdman Cəmiyyətində daxili işlər orqan və hissələri arasında cü-do üzrə şəxsi və komanda birinciliyi uğrunda yarış keçirilib.***











Yarışda 9 idmançı və 1 nümayəndə ilə təmsil olunan yığma komandamız müsbət nəticə əldə edib. Belə ki, şəxsi birincilikdə 90 kq çəki dərəcəsində 16077 saylı hərbi hissənin hərbi qulluqçusu əsgər Ceyhun Babakişiyev və +100 kq çəki dərəcəsində Daxili Qoşunların İdman komandasından kapitan Emin Hüseynov 1-ci yeri tutub.

60 kq çəki dərəcəsində yarışan 16077 saylı hərbi hissənin hərbi qulluqçusu əsgər Nicat Hətəmli, 66 kq çəki dərəcəsində 25031 saylı hərbi hissənin hərbi qulluqçusu əsgər Elmir Qocayev, 73 kq çəki dərəcəsində 16073 saylı hərbi hissənin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Hüseyn Heydərov isə 2-ci yerə layiq görülüblər.

99713 saylı hərbi hissənin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları çavuş Araz Hacıverdiyev və çavuş Əli Bayramov 81 kq, 67987 saylı hərbi hissənin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Vüqar İsmayılov 100 kq çəki dərəcəsində 3-cü yerdə qərarlaşıblar.

Ümumi nəticəyə gəldikdə isə yığmamız komanda birinciliyində Fəxri kürsünün II pilləsinə yüksəlib.

Qeyd edək ki, yarışda nailiyyətlər əldə etmiş idmançı hərbi qulluqçularımız Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı tərəfindən mükafatlandırılıblar.

**leytenant N.Ağayeva**

## NARKOMANİYA:
## - dəhşətli ağ ölüm...

***Artıq uzun müddətdir ki, narkomaniya müasir cəmiyyətin ən çox rastlaşdığı və müzakirə etdiyi problemlərdən biridir. Və təəssüflə qeyd etməliyik ki, ağ ölüm adlandırılan bu bəlanın qurbanları bütün dünyada durmadan artır. Bu öldürücü maddənin pəncəsindən gec də olsa yaxa qurtarmağa çalışanlar tapılsa da, atılan addım hər zaman müsbət nəticə vermir. Çünki narkotik maddələrdən imtina etmək üçün insan güclü iradəyə malik olmalıdır.***

**Necə mübarizə aparmalı?**

Narkotiklə mübarizə dedikdə, narkomanlarla mübarizə nəzərdə tutulur. Beynəlxalq təşkilatların qəbul və təsdiq etdiyi prinsiplər narkotikə qarşı mübarizə zamanı diqqətli olmağı tövsiyə edir. Bu, narkotik istifadəçilərinə qarşı müharibə kimi qəbul olunmamalıdır. Çünki narkotikdən əziyyət çəkən insanlara qarşı mübarizə aparmaq adətən onları daha da sıxışdırmaqla problemin getdikcə artması ilə nəticələnir. Mütəxəssislərin fikrincə, bu insanları cəmiyyət arasına gətirmək, onların reabilitasiyasına çalışmaq və narkotik asılılıqlarını bir xəstəlik kimi qəbul etmək, onları təqib etməmək (cinayət təqibi) və s. lazımdır. Bütün bunlar Avropa ölkələrində tətbiq olunur və çox müsbət nəticələr verir.

Ekspertlərin fikrincə, gəncləri bu bəladan qorumalı, qoruya bilmədiklərimizi isə xəstə kimi qəbul etməməliyik. Bu şəxslərə cəza tətbiq etməklə onları cəmiyyətdən təcrid etmək olmaz.

**İnsanlar bu “bəla”ya necə düçar olurlar?**

Araşdırmalardan bəlli olur ki, narkotik maddələrdən istifadə edən insanlarda ilk əvvəl xoş hisslər yaranmağa başlayır və istifadəçilər bu aldadıcı təsirin, yəni sevinc və enerjinin həmin maddələrdə olmasına inanmağa başlayır. Bu qənaətin yanlış olduğunu isə deməyə heç ehtiyac yoxdur. Əgər hər şey narkotik istifadəçilərinin düşündüyü kimi olsaydı, cəmiyyətin ən fərəhli, ən gümrah, öz karyerasında və şəxsi həyatında uğur qazanan insanları onlar olardılar.

Narkotikin aludəçisi olanlarla aparılan sorğular göstərir ki, ailədə və işdə yaranan problemlər, psixoloji zəiflik, düzgün seçilməyən mühit və digər müxtəlif səbəblər onları narkotikdən istifadəyə istiqamətləndirib. Əlbəttə, narkotikdən sırf əyləncə məqsədilə istifadə edənlərin də olması faktdır.

Narkomaniya insanın tədricən ölümünə səbəb olur. Daha doğrusu, insan şüurlu olaraq özü-özünü ölümə məhkum edir. Belə ki, bu maddələrdən mütəmadi olaraq istifadə edənlərin orqanizmləri zəifləməyə, bədəni fiziki gücdən düşməyə, həmçinin daxili orqanlar - qaraciyər, böyrək öz funksiyasını itirməyə başlayır. Bundan başqa, narkotik maddələr şəkərli diabet, hepatit kimi xəstəliklərin də yaranmasına səbəb olur. Və ən nəhayət, QİÇS kimi təhlükəli bir xəstəlik qaçılmaz olur. Bu xəstəliyə yoluxanların əksəriyyəti narkotik maddə istifadəçiləridir. Bütün bunlarla yanaşı, narkotikin təsirindən həmin insanların yaxınları ilə problemlər yaranır, onlar psixoloji sarsıntılar keçirərək ətrafında olan insanlara zərər verməyə başlayırlar.

Əfsuslar olsun ki, bu gün orqanizmində narkotik daşıyıcı olanların əksəriyyəti gənc nəslin nümayəndələridir. Bunun sonunda dayanan faciəni isə təsəvvür etmək belə qorxuncdur. Çünki gənclər hər bir millətin gələcəyi, dövləti inkişaf etdirən başlıca sütundur.

**Uçurumun kənarında...**

Narkotik istifadə edən insanlardan doğulan körpələrin fiziki qüsurlu olması qaçılmazdır. Bundan başqa, bu mühitdə böyüyən, tərbiyə alan uşağın hansı psixoloji problemlərinin olmasını təsəvvür etmək çətin deyil.

Mütəxəssislərin fikrincə nikahdan öncə mütləq tibbi müayinədən keçmək lazımdır. Bu, gələcəkdə ailə üçün hərtərəfli - həm fiziki, həm də psixoloji baxımdan möhkəm zəmindir. Müxtəlif ölkələrdə bu məsələyə münasibət də fərqlidir. Orta Asiya ölkələrində nikahdan öncə tibbi müayinə məsələsi aktual olmasa da, gənclərin sağlamlığı barədə onlardan formal məlumat tələb olunur. Qərb ölkələrində isə vəziyyət tamamilə başqadır. Bu məsələyə çox ciddi yanaşılır. ABŞ-da nikahdan öncə qan analizi mütləqdir. Fransada isə nikahdan öncə tibbi müayinə artıq qanuniləşib.

Ukraynada da tibbi müayinədən keçmədən nikah qadağandır. Problem olduqda dövlət tərəfindən onların tibbi müayinəsi üçün lazımi şərait yaradılır, müayinənin nəticəsi isə sirr olaraq qalır. Bu, yalnız gənclərə açıqlanır. Tərəflərdən birinin səhhəti ilə bağlı problemi gizlətməsi nikahın etibarsız sayılması üçün əsas ola bilər.

Narkotik istifadəçisi ilə eyni evdə yaşamaq yalnız fiziki xəstəliklərə deyil, psixoloji travmalara, mənəvi pozuntulara da gətirib çıxarır. Elə buna görə də sonradan hər hansı problemlə üzləşməmək üçün ailə qurarkən hər iki tərəfin sağlamlıq müayinəsindən keçməsi vacibdir. Hələ ki, bunun mahiyyətini və vacibliyini dərk edərək müayinədən keçənlər azdır. Unutmayaq ki, belə hallara məsuliyyətsiz yanaşma cəmiyyət üçün təhlükə yaradır.


TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN
Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: X.Tağıyeva

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4,
Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonu : (012) 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000



*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
İlham ƏLİYEV

DİN DAXİLİ QOŞUNLAR

ƏSGƏR

№ 23 (489)
30 noyabr 2016-cı il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN-in Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SABUNÇU RAYONUNDA TİKİLMİŞ YENİ YAŞAYIŞ BİNASININ AÇILIŞINDA İŞTİRAK EDİB

***Sabunçu rayonunun Ramana qəsəbəsində qəzalı vəziyyətdə olan binanın sakinləri üçün tikilmiş yeni binanın noyabrın 25-də açılışı olub.***



**AZƏRTAC** xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib.

Bakı şəhərinin və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafı dövlətin əsas prioritetlərindən biri olaraq daim diqqət mərkəzindədir. Əhalinin həyat şəraitinin yaxşılaşdırılması, sosial infrastrukturun müasir tələblər səviyyəsində yenidən qurulması istiqamətində son illər ardıcıl tədbirlər həyata keçirilir. Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı çərçivəsində görülən işlər yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi və digər sosial məsələlərin həlli istiqamətində atılan mühüm addımlardan biri oldu. Yararsız vəziyyətdə olan yaşayış binalarının yerində Prezident İlham Əliyevin təşəbbüsü ilə yeni layihələr əsasında ən müasir standartlara uyğun yeni binaların tikilməsi paytaxtımızda növbəti sosial layihələrin uğurlu icrasına start verəcək. Qeyd edilib ki, Ramana qəsəbəsi, Bünyadzadə küçəsi 23 ünvanında yerləşən yaşayış binası 1901-ci ildə neftçilər üçün inşa edilmiş və uzun illər istismar olunduğundan qəzalı vəziyyətə düşmüşdü.

Azərbaycan Respublikası Prezidentinin göstərişinə əsasən, Nazirlər Kabineti “Bakı şəhəri Sabunçu rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər barədə” 2015-ci il 8 oktyabr tarixli Qərar qəbul edib. Həmin Qərara əsasən, rayon ərazisində qəzalı vəziyyətdə olan binaların sökülərək yerində müasir tələblərə cavab verən yenilərinin tikilməsi ilə əlaqədar qeyd olunan qəzalı binada yaşayan 34 ailə-147 sakin kirayə haqları ödənilərək binadan köçürülüb. 2015-ci il dekabrın 24-də onun yerində “Pilot layihə” formatında 10 mərtəbəli, iki və üç otaqlı 80 mənzilli yeni yaşayış binasının inşasına başlanılıb.

**Dövlətimizin başçısı binadakı mənzillərdə yaradılmış şəraitlə tanış oldu.**

Bildirildi ki, yeni binanın tikintisi noyabrın 9-da - Dövlət Bayrağı Günündə başa çatdırılıb. Ümumi sahəsi 5768 kvadratmetr olan binadan 35 ailəyə tam təmirli, bütün şəraiti olan, müvafiq avadanlıqlarla təchiz edilmiş və sahələri əvvəlkindən 35-45 faizdən çox olan mənzillər verilib.



**Yeni binanın sakinləri ilə görüşən Prezident İlham Əliyev dedi:**

- Bu gün Sabunçu rayonunda yeni yaşayış binasının açılışını qeyd edirik. Son illər ərzində Bakıda və Bakıətrafı qəsəbələrdə yüzlərlə, bəlkə də minlərlə yaşayış binası tikilmişdir. Ancaq bu binanın xüsusi əhəmiyyəti var. Bu, 1901-ci ildə tikilmiş və çoxdan qəzalı vəziyyətdə olan binanın yerində inşa edilib. Bu, pilot layihədir. Şadam ki, artıq şəhərimizin müxtəlif yerlərində buna bənzər layihələr icra edilir. Bu layihələrin icrası həm sosial məsələdir, eyni zamanda, şəhərimizi gözəlləşdirir. Bununla bərabər, bu binaları tikən insanlar, şirkətlər də xeyir götürürlər. Yəni, burada hər bir iştirakçı xeyir götürür və beləliklə, bütün qəzalı vəziyyətdə olan binaların yerində tədricən belə gözəl, yaraşıqlı binalar tikiləcək.

Mənə verilən məlumata görə, əvvəlki dövrdə bu binada 34 ailə yaşayıb. İndi binanın girişində əvvəlki binanın görüntüləri əks olunur. Siz, bu binada yaşayanlar bunu əlbəttə ki, yaxşı bilirsiniz. 34 ailəyə 34 mənzil verilib. Üçotaqlı mənzil 105 kvadratmetrdir. Əvvəlki üçotaqlı mənzil 60 kvadratmetr idi. Yəni, iki dəfə çox sahəsi olan təmirli, yaraşıqlı, gözəl mənzillər verilib. Sakinlər bina tikilənə qədər kirayədə qalırdılar, onlara kirayə pulu da verilirdi. İndi isə siz gözəl mənzillərə köçürsünüz.

Bu, çox gözəl təşəbbüsdür, qeyd etdiyim kimi, pilot layihədir. Hazırda şəhərimizin müxtəlif yerlərində buna bənzər 49 layihə icra edilir. Bu binaların bir hissəsinin tikintisi artıq gedir. Bəzi binaların tikintisi ilə bağlı sakinlərlə danışıqlar aparılır. Ancaq ümid edirəm, sakinlər bu binanı görəndən sonra danışıqlarda daha da ürəklə iştirak edəcəklər, görəcəklər ki, onların maraqları tam təmin olunur.

Belə layihələrin icrasının əsas məqsədi insanları gözəl mənzillərlə təmin etməkdir, özü də pulsuz. Bax, burada yaşayan insanlar bu gün bundan iki dəfə daha böyük mənzillərə sahib olurlar, köçəcəklər, yaxşı yaşayacaqlar. Digər məqsəd şəhərimizin abadlaşmasıdır. Çünki bu gün Bakı şəhəri dünyanın ən gözəl şəhərlərindən biridir. Şəhərimizin müxtəlif yerlərində gözəl binalar tikilir. Çox istərdim ki, şəhərimizin bütün yerlərində memarlıq baxımından çox gözəl binalar tikilsin. Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı icra edilir və bu layihə, eyni zamanda, memarlığa da verilən böyük töhfədir.

Əlbəttə ki, artıq 115 yaşı olan binada yaşamaq təhlükəli məsələdir. Hələ ki, Bakıda belə binalar kifayət qədər çoxdur. Onların yerində gözəl binalar tikilməlidir və tikilir. Belə layihələrin ölkə iqtisadiyyatına, xüsusilə, inşaat, tikinti materialları sektoruna da çox gözəl təsiri olacaq. Çünki bu il inşaat sektorunda tənəzzül yaşanır, inşaat sektoru təxminən 25-30 faiz aşağı düşür. Belə layihələrin icrası inşaat sektoruna da canlanma gətirəcək. Tikinti materialları ilə məşğul olan şirkətlər də xeyir götürəcək və beləliklə, ölkə iqtisadiyyatı daha sürətlə inkişaf edəcək. Hazırda 49 binanın tikintisində iştirak edən və iştirak edəcək işçilərin sayı 3-4 min nəfər olacaq. Bu da yeni iş yerlərinin yaradılması deməkdir.

Bu tipli layihələr ölkəmizdə geniş vüsət almalıdır. Həm Bakıda, həm bütün şəhər və rayonlarımızda, harada ki, qəzalı binalar var, biz bütün firmaları, iş adamlarını dəvət edirik. Yerli icra orqanları onlara bütün şərait yaratmalıdırlar ki, bu işə daha da həvəslə qoşulsunlar. Beləliklə, qısa müddətdə, bir neçə il ərzində ölkəmizdə bir dənə də qəzalı vəziyyətdə bina olmamalıdır. Bu, həm insanlar üçün lazımdır, həm də ölkə iqtisadiyyatı, iş adamları xeyir götürəcək. Yəni, bu, bir ümumxalq hərəkatı olmalıdır. Bu binanın xüsusiyyəti məhz bundadır. Buna görə mən bu binanın açılışına gəlmişəm. Qeyd etdiyim kimi, Bakıda son illər ərzində yüzlərlə, minlərlə bina tikilib, ancaq bu binanın xüsusi əhəmiyyəti var. Bu, pilot layihədir və bu layihənin çox gözəl gələcəyi olacaq.

Sizi, bu binada əvvəllər yaşayan və indi gözəl şəraitdə yaşayacaq insanları təbrik edirəm, sizə uğurlar arzulayıram. Burada rahat, xoşbəxt yaşayın.

## DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov noyabrın 11-də Türkiyə Respublikasının ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Erkan Özoralı qəbul edib.**

Qonağı səmimiyyətlə salamlayan nazir onu yeni təyinat münasibətilə təbrik edib, dost, qardaş ölkələrimiz və xalqlarımız arasında əlaqələrin daha da genişləndirilməsi üçün gələcək fəaliyyətində uğurlar arzulayıb.

Əvvəlcə səfirə DİN-in funksiyaları və əsas fəaliyyət istiqamətləri, müstəqilliyin ilk illərində üzləşdiyimiz çətinliklər, keçilən çətin və eyni zamanda, şərəfli yol barədə qısa məlumat verilib. Qeyd olunub ki, yalnız Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə ali hakimiyyətə qayıdışından sonra onun rəhbərliyi altında cəmiyyət həyatının bütün sahələrində, o cümlədən hüquq-mühafizə sahəsində həyata keçirilən qətiyyətli tədbirlər nəticəsində Azərbaycanda sabitlik, əmin-amanlıq bərpa edilib, kriminogen durum nəzarətə götürülüb.

Daxili İşlər Naziri Ümummilli Lider Heydər Əliyevin “bir millət, iki dövlət” adlandırdığı Azərbaycan ilə Türkiyə arasında əlaqələrin hər zaman yüksələn xətlə inkişaf etdiyini, dünən anadan olmasının növbəti ildönümü təntənə ilə qeyd olunan böyük öndər Mustafa Kamal Atatürkün “Azərbaycanın sevinci sevincimiz, kədəri isə kədərimizdir” məşhur ifadəsinin strateji əməkdaşlığın bütün istiqamətlərində özünü göstərdiyini, dövlət rəhbərlərinin siyasi iradəsi və qarşılıqlı səfərləri nəticəsində dost və qardaş ölkələrimiz arasındakı işbirliyinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu məmnunluqla xatırladıb. Bildirilib ki, bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin son illərdəki sürətli inkişafını şərtləndirən əsas amillərdən olan dönməz sabitlik yaradılıb.



Dövlət başçılarımızın əməkdaşlığın bütün sahələrdə ən yüksək səviyyədə inkişafına xüsusi önəm verdiklərini diqqətə çatdıran cənab Ramil Usubov son illər hər iki ölkənin Daxili İşlər Nazirliklərinin cinayətkarlıqla mübarizə, peşə hazırlığı, informasiya və təcrübə mübadiləsi sahələrində əldə etdikləri diqqətəlayiq nəticələr barədə də məlumat verib. General-polkovnik Ramil Usubov ölkəmizdə ordu quruculuğunda, o cümlədən DİN-in Daxili Qoşunlarının formalaşmasında, ən müasir tələblərə cavab verən silahlı birləşməyə çevrilməsində, şəxsi heyətin peşəkarlığının daha da yüksəldilməsində Türkiyə Silahlı Qüvvələri və Jandarm Komandanlığının böyük zəhməti olduğunu xüsusi vurğulayıb və təmənnasız qardaşlıq köməyinə görə minnətdarlığını bildirib.

İyul ayının 15-də baş vermiş dövlət çevrilişi cəhdinə toxunan nazir türk vətəndaşlarının cənab Prezident Rəcəb Tayyib Ərdoğanın ətrafında sıx birləşməklə həmin qəsdin qarşısını qətiyyətlə aldığını, Azərbaycan Prezidentinin və xalqının ilk dəqiqələrdən Türkiyə dövlətinin və xalqının yanında olduğunu, demokratik yolla seçilmiş hakimiyyəti hərtərəfli dəstəklədiyini bir daha məmnunluqla xatırladıb. Nazir 15 iyul hadisələrindən dərhal sonra müxtəlif sahələrdə və strukturlarda fəaliyyət göstərən “Hizmət hərəkatı”na mənsub şəxslərin aşkarlanması istiqamətində möhtərəm prezidentimizin müvafiq tapşırığına əsasən lazımi tədbirlər görüldüyünü, cari ilin avqust ayının 12-də cinayət işi başlanıldığını, həmin cinayət işi üzrə Baş Prokurorluğun, Daxili İşlər Nazirliyinin və Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradıldığını, sözügedən istiqamətdə müvafiq tədbirlərin davam etdirildiyini diqqətə çatdırıb.

Problemlərə toxunan cənab Ramil Usubov transmilli mütəşəkkil cinayətkarlığın beynəlxalq terrorçuluq, narkotiklərin qanunsuz dövriyyəsi, insan alveri və qeyri-qanuni miqrasiya kimi ağır növləri ilə mübarizənin ölkəmizdə də diqqət mərkəzində saxlanıldığını vurğulayıb.

Səfir Erkan Özoral səmimi qəbula, təbrikə və ətraflı məlumata, eyni zamanda, Türkiyədə dövlət çevrilişinə cəhd zamanı dost və qardaş Azərbaycan dövlətinin və xalqının ölkəsinə göstərdiyi dəstəyə görə təşəkkür edib, respublikamızdakı diplomatik fəaliyyəti dövründə ikitərəfli əməkdaşlığın daha da möhkəmlənməsinə öz töhfəsini verəcəyini vurğulayıb.

Dostluq və mehribanlıq şəraitində keçən görüşdə bir sıra digər məsələlər də müzakirə edilib.

## 25033 SAYLI HƏRBİ HİSSƏDƏ "ƏNƏNƏVİ İSLAM VƏ XARİCİ TƏSİRLƏR" MÖVZUSUNDA TƏDBİR KEÇİRİLİB

***Noyabrın 11-də Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının 25033 saylı hərbi hissəsində "Ənənəvi İslam və xarici təsirlər" mövzusunda tədbir keçirilib. Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov, Lənkəran bölgəsi üzrə şöbənin müdiri Qağayı Məmmədov və hərbi hissənin şəxsi heyəti iştirak edib.***

Tədbiri giriş sözü ilə açan hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini mayor Nəriman İsayev mövzunun əhəmiyyəti barədə məlumat verib.

Daha sonra Ə.Zülfüqarov "Ənənəvi İslam və xarici təsirlər" mövzusunda məruzə ilə çıxış edib. O bildirib ki, radikalizmi doğuran başlıca səbəblərdən biri İslam dini haqqında məlumatsızlıq, dini bilgilərin zəif olmasıdır. Şöbə müdiri vurğulayıb ki, ona görə də dini radikalizmlə mübarizədə ilk növbədə dini maarifçilik işinin təşkilinə xüsusi önəm verilməlidir.

Ə.Zülfüqarov gənclər arasında dini maarifləndirmənin güclənməsinin vacibliyini vurğulayaraq onu da bildirib ki, bu sahədə bölgələrdə dini maarifçilik işləri daha da gücləndirilir, yerlərdə gənclər arasında dini savadlılığın artırılması istiqamətində tədbirlər görülür.

Sonda şəxsi heyətə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi ilə hazırlanmış "Fitnə" filmi nümayiş olunub. Filmin nümayişindən sonra tədbir iştirakçıları şəxsi heyəti maraqlandıran suallar cavablandırılıb.

**Mətbuat xidməti**

## BAXIŞ MÜSABİQƏLƏRİNİN NƏTİCƏLƏRİ MƏLUM OLUB











Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən, oktyabr ayının 1-dən 31-dək Ali Hərbi Məktəbdə və hərbi hissələrdə qoşun xidmətinə, qarovul məntəqələri və xidmətaparma yerlərinə baxış müsabiqəsi keçirilib. Baxış müsabiqəsinin nəticələri təhlil edilərkən Ali Hərbi Məktəb və hərbi hissələrdə qoşun xidmətinin rəhbər sənədlərin tələblərinə uyğun təşkil edilməsi, sutkalıq naryadların xidmətaparma keyfiyyəti, qarovul məntəqələrinin və xidmətaparma yerlərinin vəziyyətinin ümumən qənaətbəxş olması qərara alınıb.

Hərbi hissələr üzrə nəticələr aşağıdakı kimi müəyyən olunub:

**Qarovul məntəqələri və xidmətaparma yerləri üzrə:**

**I yer** - 12318 saylı hərbi hissə;

**II yer** - 16077 saylı hərbi hissə;

**III yer** - 16076 saylı hərbi hissə.

**Qoşun xidməti üzrə:**

**I yer** - 16073 saylı hərbi hissə;

**II yer** - 17072 saylı hərbi hissə;

**III yer** - 12318 saylı hərbi hissə.

Qeyd edək ki, baxış müsabiqələrinin nəticələrinə görə, ilk üç yeri tutmuş hərbi hissələr, eyni zamanda 12318, 16073, 17072, 16077 və 16076 saylı hərbi hissələrdə xidməti-vəzifə borclarının icrasına məsuliyyətlə yanaşan hərbi qulluqçular Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının və hərbi hissə komandirlərinin müvafiq əmrləri ilə mükafatlandırılıblar.

**leytenant N.Ağayeva**

## İCTİMAİ-SİYASİ HAZIRLIQ MƏŞĞƏLƏSİNDƏ...

***16073 saylı hərbi hissənin qabaqcıl bölüklərindən biri də xüsusi vasitələrin tətbiqi bölməsidir. Bölmə funksional vəzifələrin icrasına məsuliyyətlə yanaşır və xidməti fəaliyyətin yerinə yetirilməsində peşəkarlıq nümayiş etdirir.***

Bölmənin cəlb olunduğu əməliyyatlarda müəyyən edilmiş tapşırıqların yüksək səviyyədə icra edilməsi bunu deməyə əsas verir.

Hərbi hissədə xidməti ezamiyyətdə olduğum zaman bölmənin şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq məşğələsini izlədim. "Azərbaycan ordusu Cənubi Qafqazın ən güclü ordusudur" mövzusunda keçirilən məşğələdə hərbi qulluqçulara ətraflı məlumat verildi.

Qeyd edildi ki, artıq neçə illərdir ki, Azərbaycanın hərbi büdcəsi Ermənistanın dövlət büdcəsindən çoxdur. Bütün bunların nəticəsində Silahlı Qüvvələrimizin imkan və qabiliyyətinin artırılması, qoşunların hərtərəfli və fasiləsiz maddi-texniki təminatının yüksəldilməsi məqsədilə yeni silahların, texnikanın, hərbi əmlakın alınması istiqamətində işlər aparılır. Qoşunların silah və döyüş sursatı ilə təminatı, uzun müddət istismarda olan silahların və cihazların yeniləri ilə əvəzlənməsi, onların istifadəsinin düzgün təşkili məsələlərinə xüsusi diqqət yetirilir. Müasir döyüş texnikaları ilə təchiz edilmiş Azərbaycan Silahlı Qüvvələri döyüş qabiliyyəti ilə yanaşı, həm də yüksək nizam-intizama malikdir.

Bu ilin aprel ayının əvvəllərində ermənilərin cəbhə xəttində törətdikləri təxribatlar göstərdi ki, hərbi toqquşmalar hər an yenidən alovlana bilər. Lakin ən əsası bir daha sübut olundu ki, Azərbaycan Ordusu qısa müddətdə qələbə qazanmağa qadirdir. Cari ilin aprelində erməni təxribatına cavab



verən Milli Ordumuz 2000 hektardan çox ərazini işğaldan azad edərək nəzarət altına aldı. Aprel əməliyyatını yüksək qiymətləndirən Prezident İlham Əliyev demişdir: "Aprel döyüşləri hərbi dərsliklərə salınmalıdır. Azərbaycan Ordusu bu döyüşlərdə peşəkarlıq, qəhrəmanlıq, məharət göstərmişdir".

Mövzu ətrafında səsləndirilən fikirləri maraqla dinləyən bölmənin şəxsi heyəti dərsin gedişində fəallıq nümayiş etdirirdi. Daha çox diqqət cəlb edən gizir Əfşan Abdullayev və gizir Ramil Durmuşov idi. Qarşılıqlı fikir mübadiləsi şəraitində keçən məşğələdə onlar da öz fikirlərini diqqətə çatdırdılar. Bildirdilər ki, Ermənistanın istənilən məkrli niyyətinin qarşısını almaq və torpaqlarımızı işğaldan azad etmək üçün ordumuz kifayət qədər və daha üstün imkanlara malikdir. Hərbi gücümüz istənilən təhdidin qarşısının alınmasına yüksək səviyyədə imkan verir.

Hərbi qulluqçularımızda yüksək döyüş ruhunun formalaşmasından hiss olunurdu ki, hərbi hissədə ictimai-siyasi hazırlıq məşğələləri keyfiyyətlə təşkil olunub keçirilir.

Məşğələ maraqlı keçsə də ayrılmış vaxt bitmək üzrə idi. Şəxsi heyətlə sağollaşaraq, "Əsgər" qəzeti üçün material toplamaq məqsədilə digər bölmələrə üz tutdum.

**baş leytenant T.Əlizadə**

## ŞƏXSİ HEYƏTİN KEYFİYYƏTLİ VƏ KALORİLİ QİDALANMASI DİQQƏT MƏRKƏZİNDƏDİR

Birmənalı olaraq qeyd edə bilərik ki, bu gün Daxili Qoşunların bütün hərbi hissələrində şəxsi heyətin keyfiyyətli və kalorili yeməklərlə qidalanması diqqət mərkəzində saxlanılan əsas məsələlərdəndir.

16073 saylı hərbi hissənin yeməkxanası digər hərbi hissələrimizdə olduğu kimi müasir standartların tələblərinə uyğun inşa edilərək şəxsi heyətin istifadəsinə verilib.

Ərzaq xidmətinin rəisi mayor İlqar İbrahimov şəxsi heyətin qida rasionundan danışarkən bildirdi ki, əsasən milli yeməklərə üstünlük verilir. Həftə ərzində hərbi qulluqçulara birinci xörək olaraq düyü şorbası, kələm şorbası, parçabozbaş, mərci şorbası, ikinci xörəklərdən isə makoran süzməsi, lobyalı və ya mərcili düyü plovu ət qovurması ilə, qarabaşaq, dolma, kotlet kimi yeməklər verilir. Bununla yanaşı, gündəlik olaraq tərəvəz qəlyanaltısı və meyvə şirələri də qida rasionuna daxildir. O, şəxsi heyətin qidalanmasının həftəlik bölgü cədvəlinə əsasən aparıldığını söylədi.

Qidaların tələb olunan səviyyədə keyfiyyətlə hazırlanması məqsədilə kurs keçmiş ixtisaslı əsgər aşpazlarla bərabər mülki qadınların əməyindən də istifadə olunur. Sözsüz ki, yeməklərin bişirilməsində zəhməti olan "zərif əllər"in sayəsində qidalar daha dadlı olur. Mülkü qadın aşpazlardan Bəsti Məmmədova, Esmira Əlixanova, Ədilə Məmmədova, əsgər aşpazlardan isə Sənan Məmmədov və Əlabbas Fazilbəyli üzərilərinə düşən vəzifələri məsuliyyətlə icra





edirlər.

Bir sözlə, şəxsi heyətin keyfiyyətli qidalanması ilə bağlı qarşıya qoyulmuş tələblər yüksək səviyyədə yerinə yetirilməkdədir.

**baş leytenant T.Əlizadə**

## MÜTƏXƏSSİSLƏRİN HAZIRLIĞI YÜKSƏK SƏVİYYƏDƏDİR

***25032 saylı hərbi hissədə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirən bölmələrdən biri kiçik komandirlər hazırlayan tədris bölüyüdür.***

Bölmənin əsas vəzifəsi kiçik komandirlərin hazırlanması, hərbi qulluqçulara manqa, heyət tərkibində döyüşün aparılması qaydalarının öyrədilməsi və fəaliyyət bacarıqlarının artırılmasıdır. Kiçik komandirlərin metodiki savadının, həmçinin, təşkilatçılıq və idarəetmə qabiliyyətinin artırılması da bölmənin funksional vəzifələrinə daxildir.

Kiçik komandirlər hazırlayan tədris bölüyünün komandiri-baş müəllim leytenant Sənan Baxışov hərbi qulluqçuların kiçik komandir kimi formalaşması istiqamətində görülən işlərdən danışdı. Bildirdi ki, bu məqsədlə şəxsi heyət tədris proqramına uyğun olaraq 20 faiz nəzəri, 80 faiz isə praktiki məşğələlərə cəlb olunur. Onun sözlərinə görə, tədris dövrü ərzində şəxsi heyət 5 həftə bilik və bacarıqlarını təkmilləşdirdikdən sonra təcrübə toplamaq məqsədilə yeni xidmətə qəbul olunmuş çağırışçıların üzərinə manqa komandiri təyin edilirlər. Burada kifayət qədər təcrübə topladıqdan sonra tədris dövrünün sonunda şəxsi heyət imtahanlara cəlb olunur. Məqbulları müvəffəqiyyətlə verən hərbi qulluqçulara "kiçik çavuş" hərbi rütbəsi verilir və onlar xidmətlərini davam etdirmək üçün hərbi hissələrə göndərilirlər. Kiçik komandirlərin hazırlanmasında əməyi olan taqım komandirlərindən baş leytenant Qiyas Hüseynin və leytenant Yamin Şirinovun adlarını qeyd etmək olar.







***25032 saylı hərbi hissədə xidməti-döyüş fəaliyyətini uğurla həyata keçirən digər bir bölmə sürücü və kiçik mütəxəssislər hazırlayan tədris bölüyüdür.***

Bölüyün qarşısında duran əsas tapşırıqlar qoşunların hərbi hissələrinə rabitəçi, sürücü və aşpaz mütəxəssislər hazırlamaqdır. Bölük komandiri-baş müəllim leytenant Şamo Şirinov mütəmadi olaraq hər bir taqımın təyinatına uyğun məşğələlərə cəlb olunduğunu dedi. Tədris zamanı rabitəçi mütəxəssisləri hazırlayan taqımın şəxsi heyətinə qoşunların təchizatında olan rabitə və yüksək texnoloji vasitələrin, ultraqısa dalğalı, eyni zamanda qısa dalğalı radiostansiyaların taktiki-texniki xüsusiyyətləri izah edilir, işə salınması, istismarı, eləcə də radiomübadilənin aparılması qaydaları öyrədilir.

Sürücü hazırlayan taqımın hərbi qulluqçularına bilik və bacarıqlarının plana uyğun mərhələli şəkildə mənimsənilməsi, avtomobil, motosikl, həmçinin digər texnikanın hər cür hava və ərazi şəraitində yol hərəkəti qaydalarına uyğun avtomobillərin idarə edilməsi tədris olunur. Aşpazlara isə yeməklərin bişirilməsi, keyfiyyəti, səhra şəraitində hazırlanması, o cümlədən, gigiyena qaydalarına ciddi riayət olunması üsulları aşılanır.

Yeri gəlmişkən qeyd edim ki, mütəxəssislərlə keçirilən tədris dövrü hərbi hissə komandanlığı tərəfindən nəzarətdə saxlanılır.

Leytenant Ş.Şirinov ildə dörd təlim dövrünün olduğunu deyərək, kursun sonunda ixtisaslar üzrə yekun imtahanların qəbul edildiyini söylədi. O, ayın ilk yarısında ötən dönəm sürücü və kiçik mütəxəssislərin məqbulları müvəffəqiyyətlə verdiklərini, ümumilikdə, 44 nəfər mütəxəssisin hazırlanaraq, hərbi hissələrə göndərildiyini nəzərə çatdırdı.

Bölük komandiri hazırda tədris alan hərbi qulluqçuların çox fəal və bacarıqlı olduğunu vurğulayaraq, onların da yiyələndikləri ixtisaslar üzrə peşəkar mütəxəssis kimi hazırlanacağına əminliyini ifadə etdi.

**baş leytenant T.Əlizadə**



*Şəhidlərimiz*

## KÖNÜLÜN KÖNÜL SEVDASI VƏTƏN İDİ

**Azərbaycan qadını öz müdrikliyi, sədaqəti, qəhrəmanlığı, cəsarəti və yüksək analıq keyfiyyətləri ilə xalqımızın adını daim uca tutub. Bundan əlavə, tariximizin bütün dövrlərində xalqımızın taleyüklü məsələlərinin həll edilməsində qadınlarımız da yaxından iştirak ediblər. Məhz buna görə də onların bir çoxunun adı Azərbaycan tarixinin səhifələrinə qızıl hərflərlə yazılıb.**

**XX əsrin sonlarında torpaqlarımız erməni daşnaklarının təcavüzünə məruz qalanda, igid oğullarımızla bərabər Vətənimizin mərd qızları da silaha sarılaraq, mənfur düşmənə qarşı qəhrəmancasına vuruşmuş və onların bir çoxu bu müqəddəs amal uğrunda həyatlarını qurban verərək, şəhidlik zirvəsinə yüksəlmişlər...**

**Şəhidlik zirvəsinə yüksəlmiş qəhrəman qadınlarımızdan ikisi məhz Daxili Qoşunların əməkdaşları olmuş sıravi Könül Qəhrəmanova və mülki işçi Məlahət Nəsibovadır. Bu sayımızda onlardan biri - sıravi Könül Qəhrəmanova haqqında məlumat verəcəyik.**



QƏHRƏMANOVA KÖNÜL KAMRAN QIZI

Sıravi Könül Kamran qızı Qəhrəmanova 1972-ci il iyulun 6-da qədim və füsunkar təbiətə malik yurd yerlərimizdən biri olan Şəki şəhərində dünyaya göz açıb. Kamran kişinin və Nayma ananın min bir zəhmətlə böyüdüb tərbiyə etdiyi üç övladın (Könül, Aynur və Elnur) ilki və ən sevimlisi idi Könül. O, 14 saylı orta məktəbin 8-ci sinfini bitirdikdən sonra doğma şəhərdəki 91 saylı texniki peşə məktəbinə daxil olur. Burada oxuyarkən musiqiyə, incəsənətə böyük maraq göstərir. Bu baxımdan da sənədlərini Azərbaycan Dövlət İncəsənət Universitetinə verir və qəbul olur. Könülün ən böyük arzularından biri də bu təhsil ocağını müvəffəqiyyətlə bitirib, kino rejissorluğu ixtisasına yiyələnmək və filmlər çəkmək idi. Lakin tarixin amansız hökmü onun bu arzularını gözündə qoydu.

Bədnam qonşularımızın Qarabağ və həmsərhəd rayonlarda dinc əhaliyə qarşı törətdiyi vəhşiliklər xalqımızın vətənpərvər övladı kimi Könülü də hədsiz narahat edirdi. Məhz buna görə də o ali təhsilini tamamlamadan cəbhəyə yollanır...

Onun döyüş yolu haqqında 1998-ci ildə Bakıda "Hüquq ədəbiyyatı" nəşriyyatında çap olunan **"Şəki qartalları"** adlı kitabda yer alan "Qəhrəman Könül" başlıqlı məqalədə maraqlı məlumatlar dərc edilmişdir.

**"Qarabağ hadisələri Könülün həyatında dönüş nöqtəsi oldu. Həcər qeyrətli, Nigar şücaətli qız təhsili bir kənara qoyub könüllü olaraq Xocalıya, döyüş bölgəsinə getdi. Könül 1991-ci ilin noyabr ayından 1992-ci ilin sentyabr ayınadək Xocalı, Goranboy, Ağdam, Şuşa, Laçın rayonlarında gedən döyüşlərdə fəal iştirak etmiş, yaralı əsgərlərimizə tibb bacısı kimi yardım göstərmişdir.**

**...Könül evdən cəbhəyə xəbərsiz getmişdi. Fikirləşmişdi ki, ailədə onun məqsədini bilsələr, çox güman ki, buraxmayacaqlar.**

**Valideynlər öz qızlarının sorağını qəzet səhifələrindən, radio-televiziya verilişlərindən aldılar".**

Şair-publisist Nəzmiyyə Hicranın "İnsan və cəmiyyət" qəzetinin 10-17.06.2011-ci il tarixli sayında dərc edilmiş bu vətənpərvər qızın həyat və döyüş yolundan bəhs edən "Vətən, Vətən, yenə də Vətən..." başlıqlı məqaləsində cəbhəyə gedərkən ailəsinə yazdığı məktubundan da gənc Könülün elinə, doğma torpağına nə qədər bağlı olduğunu görmək olur: **"Azərbaycan üçün, xalqımın, torpağımın azadlığı üçün canımı əsirgəməyəcəyəm. Əgər bu yoldan dönsəm, hər şey mənə haram olsun. Yox əgər siz döndərmək istəsəniz, onda məni görməyəcəksiniz. Torpağı qorumaq hər bir övladın borcudur. İstər qız olsun, istər oğlan, fərqi yoxdur. Sözüm**



**budur və bu yoldan da dönməyəcəyəm. Axır sözüm: mənə halallıq verin, bağışlayın məni...".**

Könül sonralar Daxili Qoşunların döyüş bölgəsində olan bölmələrinin tərkibində xidmət etməklə, Vətənə olan övladlıq borcunu şərəflə yerinə yetirdi.

Daxili Qoşunların tərkibində könüllü olaraq vuruşmuş və cəsurluğuna görə yoldaşları arasında "Rembo" ləqəbi ilə tanınan Məhərrəm Əliyarov (qardaşı Vaqif Əliyarov 1994-cü ilin yanvarında Ağdərə uğrunda gedən döyüşdə qəhrəmancasına şəhid olub - A.Ə.) Könüllə birgə iştirakçısı olduğu döyüşlərdə onun göstərdiyi qəhrəmanlıqları unutmayacağını və Vətənimizin qeyrətli qızı ilə qürur duyduğunu deyir: **"Mənimlə bir səngərdə döyüşürdü. Qorxubilməz, mərd qız idi. Ağdam və Ağdərə bölgələrində, o cümlədən Güneypəyə, Çıldıran, Drambon, Qalayçılar, Manikli və s. kəndlər uğrunda gedən döyüşlərdə birgə vuruşmuşuq. Könül döyüşməklə bərabər, qorxmadan gedib yaralı əsgərlərimizi də güllə altından çəkib çıxarırdı...".**

Bundan əlavə, Daxili Qoşunların veteranı, Quba rayonu, Vəlvələçay kənd sakini vətəndaş Namiq Zamanlı (22.08.1992-ci il tarixdə Ağdərə rayonunun Kasapet yüksəkliyinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı düşmən snayperinə tuş gəlib və aldığı güllə yarası nəticəsində sol ayağını itirib - A.Ə.) da Könülün Vətənimizin qəhrəman oğulları ilə birgə çiyin-çiyinə vuruşduğunu qeyd edərək, onu ilk dəfə Cinli kəndi ətrafında gedən döyüşlər zamanı yaxından tanıdığını bildirdi.

**30 sentyabr 1992-ci il.** Ağdam rayonunun Cinli kəndində baş vermiş döyüş Vətənini canından çox sevən Könülün son döyüşü oldu. Düşmən artilleriyasının mövqelərimizə atdığı mərminin partlaması nəticəsində sıravi Könül Qəhrəmanova əbədi ölümsüzlüyə - şəhidlik zirvəsinə yüksəldi...

Vaxtı ilə Qarabağ cəbhəsində gedən ağır döyüşlərdə erməni daşnaklarının başına od-alov yağdıran taborlardan birinin komandiri olmuş Məhəmməd Hacıyev də (hazırda polkovnik hərbi rütbəsində Daxili Qoşunların Baş İdarəsində Hərbi Şuranın katibi vəzifəsində xidmət edir) Könülün qorxubilməz qəhrəman olduğunu bildirdi: **"Könülü yaxşı tanıyırdım. Ağdamın Cinli kəndində elə gözlərimin önündə şəhid oldu.**

**O zaman bizim qərargahımız Cinli kəndindəki orta məktəbdə yerləşirdi. Kənd demək olar ki, hər gün düşmən tərəfindən müxtəlif növ silahlardan, o cümlədən minamyotlardan güclü atəşə məruz qalırdı.**

**Yaxşı yadımdadır, Könül əvvəllər könüllülərdən ibarət olan "Bərdə batalyonu"nun tərkibində vuruşurdu. Sonralar isə Daxili Qoşunların Zaqatalada yerləşən hərbi hissəsindən ezam olunmuş şəxsi heyəti ilə birgə döyüşürdü.**

**Həmin gün onlar bizim ön mövqedə yerləşən taborun şəxsi heyətini dəyişmək üçün gəlmişdilər. Bu zaman ermənilərin atdığı minamyot mərmisi bizim qərargahın ərazisinə düşdü. Bu vaxt Könül cəsur silahdaşımız baş leytenant Yaşar Bədəlovla birgə qərargahın həyətində idi. Mən onlara: "Burdan uzaqlaşın! Yoxsa sizi vuracaqlar" - deyəndə, Könül gülümsəyərək, özünəməxsus şirin Şəki ləhcəsi ilə: "Qorxma ay komandir, bizə heç nə olan deyil" - dedi. Onda qətiyyən qorxu hissi yox idi. Bu zaman düşmənin atdığı 2-ci mərmi düz onların qabağına düşdü...**

**Könül qəhrəmancasına şəhid oldu. Baş leytenant Yaşar Bədəlov isə ağır yaralanmışdı. Bir müddət sonra qospitala aparılarkən o da çoxlu qan itirdiyindən yolda şəhid oldu...".**

Şəhid döyüşçünün anası Nayma xala övladı ilə bağlı xatirələrini bizimlə bölüşərkən bunları dedi:

**"Ermənilərin Azərbaycana torpaq iddiası hələ yeni başlayanda Könül deyirdi ki, "Ana, mənim ölümüm tarixdə qalan bir ölüm olacaq". Düzü onda mənim heç ağlıma da gəlməzdi ki, o, nəyi demək istəyir. Mən düşünürdüm ki, yəqin Könül oxuyacaq, ali təhsil alacaq, tanınmış həkim, ya da professor olacaq, ona görə belə deyir. Sən demə o, şəhid olacağını deyirmiş. Kim bilərdi ki, Könül Qarabağa gedəcək, döyüşəcək və şəhid olacaq...".**



QƏHRƏMANOVLAR AİLƏSİ (ŞƏKİ 2016-cı il.)

Bu arada Nayma xalanı qəhər boğduğundan sözünə bir qədər ara verib, cəsur qızının hərbi formada çəkdirdiyi fotoşəkillərinə baxır və yenidən Könüllə bağlı xatirələrini dilə gətirir: **"Bir gün Könül gəlib mənə dedi ki, ana sizin evliliyinizin 20-ci ildönümünə ən böyük hədiyyəni mən bəxş edəcəm. Könül sentyabrın 30-da şəhid oldu. Oktyabrın 2-də isə dəfn olundu...**

**20 il öncə, 1971-ci ildə Kamranla ailə həyatı qurmuşuq. Həmin ilin sentyabrın 30-da bizim evdə qız toyu, oktyabrın 2-də isə Kamrangilin evində oğlan toyu olmuşdu. Könülün "hədiyyə" olaraq bəxş etmək istədiyi, sən demə, şəhid olması imiş...".**

Kamran dayı şəhid qızı ilə qürur duyduğunu qeyd edərək, vaxtı ilə Könüllə birgə çəkdirdiyi fotoşəkili mənə göstərir. Şəkildə hərbi forma geyinmiş və əlində silah tutan övladını qucaqlayaraq, əlini kürəyinə qoyan atanın vüqarlı baxışlarından da onun böyük iftixar hissi keçirdiyini görmək olur.

Xanım silahdaşımızın bacısı Aynur isə Vətənimizin müdafiəsi uğrunda şəhid olmuş qəhrəman bacısının adını yaşatmaq üçün ilk övladına Könülün adını qoyub. Deyir, qoy o da bacım kimi qorxmaz, mərd, vətənpərvər və xalasının adına layiq övlad olsun.

Görkəmli şairəmiz İradə Gülfir Qarabağ uğrunda həlak olmuş şagird və məzunların xatirəsinə həsr etdiyi "Şəki şəhidləri" adlı şeirində Könülün qəhrəmanlığını belə tərənnüm edir:

***Nigar, Həcər kimi bir şücaətlə,***
***Qorxmaz igid kimi çox cəsarətlə.***
***Aslanlar aslanı qəhrəman Könül,***
***Şəhid zirvəsinə qalxdı qeyrətlə...***

Şəhid K.Qəhrəmanovanın həyat və döyüş yolu barədə məlumatlar həmçinin "Milli Qəhrəmanlar" qəzetinin 09-15.04.2010-cu il tarixli sayında dərc edilmiş "Döyüşə qızlar gedir" başlıqlı məqalədə qeyd olunub. "Axtarış" qəzetinin 24.11.1992-ci il tarixli sayının üz qabığında isə Könülün əldə silah, Azərbaycanın üçrəngli bayrağını öpərək and içdiyi fotoşəkli dərc edilib. Şəklin üzərində isə "Millət yoludur, haqq yoludur, tutduğumuz yol!" şüarı yazılıb.

Bundan əlavə, K.Qəhrəmanovanın adı qoşunların Arxivində saxlanılan Daxili Qoşunlar üzrə **"1992-1994-cü illərdə gedən döyüş əməliyyatları nəticəsində şəhid olmuş hərbi qulluqçuların siyahısı"**nda 272-ci sıra nömrəsi ilə Daxili Qoşunların 67987 saylı hərbi hissəsinin sıravi hərbi qulluqçusu kimi 30.09.1992-ci il tarixdə Ağdərədə şəhid olması qeyd olunmuşdur.

Vətənin qəhrəman qızı sıravi K.Qəhrəmanova Şəkidə Şəhidlər Xiyabanında dəfn edilib. Subay idi. Vaxtı ilə yaşadığı küçəyə və 91 saylı məktəbə Könül Qəhrəmanovanın adı verilmişdi (hazırda bu təhsil ocağı fəaliyyət göstərmir - A.Ə.). Şəkidəki "Könül" xatirə bulağı da məhz onun adını daşıyır.

**Könülün ailə üzvləri, qohum-əqrəbaları hər il doğum və şəhid olduğu tarixlərdə bir araya gələrək, onunla bağlı xatirələrini qürur hissi ilə yada salırlar. Qəhrəmanovlar ailəsinin ən böyük arzusu isə işğal olunmuş torpaqlarımızın tezliklə Azərbaycan Ordusu tərəfindən azad edilməsi və Vətən yolunda canlarını qurban verən şəhid övladlarımızın intiqamının erməni cəlladlarından alınmasıdır.**

**Allah şəhidlərimizə rəhmət eləsin!**

**kapitan A.Əhmədov,**
**Mənəvi-psixoloji hazırlıq şöbəsində muzey rəhbəri**

## HƏRBİ XƏBƏRLƏR

### Çin yeni silahlı PUA-nı nümayiş etdirib

Çinin "Aviation Industry Corporation" şirkəti yeni pilotsuz uçuş aparatını (PUA) nümayiş etdirib.



Silahlı müşahidə və kəşfiyyat üzrə iki fərqli konfiqurasiyası olan yeni PUA-nın uzunluğu 9 m, hündürlüyü isə 3,66 m-dir.

"Cloud Shadow" adı verilən PUA Çin istehsalı olan WP11C turboreaktiv mühərriki ilə təchiz olunub.

Qanadının altında 6 ədəd asqı nöqtəsinə sahib silahlı konfiqurasiya AG-300 / M hava-səth" tipli, "Blue Arrow-21" "hava-səth" tipli raketlərlə silahlandırılıb. Platforma bu konfiqurasiyada 550 km/saat sürətə sahibdir.

Platformanın kəşfiyyat, nəzarət və müşahidə konfiqurasiyası isə gövdənin altına yerləşdirilmiş elektro-optik və infraqırmızı kameraları birləşdirən kompleksdən ibarətdir. Daha kompakt olan bu sistem vasitəsi ilə atışdan sonra hədəfi yüksək keyfiyyətlə izləmək və mobil hədəfləri məhv etmək mümkündür. Hər iki variantda SAR radarı mövcuddur.

### NATO-nun Avropadakı qurğularına qarşı REM sistemi

Rusiyanın "Konsern Radioelektronnıye Texnologii" şirkəti yeni radioelektron mübarizə (REM) sistemi yaradır. "Rostex"-in məlumatına görə, 3 min km radiusda işləyə biləcək sistem NATO-nun Avropadakı qurğularına qarşı fəaliyyət göstərəcək.

Sistem yerüstü qurğuların müəyyənləşdirilməsi və radiolelektron hücumların qarşısının alınmasında istifadə ediləcək. Şirkətin mütəxəssisləri bildirib ki, kütləvi hücum zamanı bu kompleks düşmənin idarəetmə sistemini sıradan çıxaracaq.

"Murmansk-BN" adlandırılan REM kompleksin ilkin nümunəsinin sınaqlarına başlanılıb. Bildirilir ki, bu sınaqlar uğurla yekunlaşdırılıb və ordunun silahlanmasına verilməsi üçün heç bir maneə qalmayıb.

### İdarə olunan "Qasırğa" raketləri artıq Türkiyə ordusunda...

"ROKETSAN" şirkəti tərəfindən T-300 "Qasırğa" raket kompleksləri üçün yaradılmış idarə olunan raketlərin ilk partiyası Türkiyə Silahlı Qüvvələrinə təhvil verilib. Məlumata görə, idarə olunan bu raketlər mövcud 300 mm çaplı raketlərlə müqayisədə daha uzaq mənzildə hədəfləri məhv etməyə imkan verir. Yeni raket ROKETSAN-ın öz imkanları hesabına hazırlanıb. ROKETSAN eyni zamanda 122 mm çaplı raketlərin idarə olunan versiyasını da hazırlayıb.

T-300 "Qasırğa" kompleksinin atış



mənzili 105 km, yeni hazırlanmış TRG-300 idarə olunan raketlərlə 120 km-dir. GPS və İNS naviqasiyasına malik TRG-300 raketinin dəqiqliyi maksimum məsafədə 30 metr təşkil edir. TRG-300 raketinin uzunluğu 5.24 metr, ağırlığı 585 kiloqramdır.

### "Terminator"un silahı gerçəkləşir

Amerikada fəaliyyət göstərən "Empity Shell" şirkəti M134 "Minigun" iş prinsipinə malik XM556 adı verilmiş yüngül atıcı silah



hazırlayıb. Şirkətin rəsmi saytında yer almış xəbərə görə, XM556 "Microgun" pulemyotunda 5.56mm-lik NATO patronlarından istifadə edilir. Öz ölçülərinə görə pulemyot ordunun istifadəsində olan pulemyotlardan daha yığcamdır.

İstehsalçı şirkət bu yeni silah platformasının sıfırdan hazırlandığını, silahın atış sürətinin sələfi ilə müqayisədə xeyli azaldığını, XM556 üçün xüsusi çaxmaq yaradıldığını qeyd edib. Silahda M134-lərdə olan bir çox problemlər həll edilib.

**AzeriDefence**